

**Ellada Bəkirova**
*Atropatena və Albaniya (Qafqaz) tarixi şöbəsinin aparıcı elmi işçisi,*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

# Albaniya dövləti

## Albaniya dövlətinin yaranması

Antik müəlliflər e.ə. IV əsr hadisələrindən bəhs edərkən Şimali Azərbaycan ərazisində alban tayfalarının və Albaniya dövlətinin adını çəkmişlər. Makedoniya tetradraxma və draxmalarının oxşarı olan yerli alban pullarının e.ə. IV əsrə aid olmasını və e.ə. IV əsrin hadisələrində alban tayfalarının adının çəkilməsi əsas götürülərək Albaniya dövlətinin təxminən elə bu tarixdə yarandığı qəbul edilir. Belə ki, e.ə. 331-ci ildə baş vermiş Qavqamela döyüşündə Əhəməni ordusunun tərkibində alban döyüşçüləri də iştirak etmiş, hətta falanqanın ortasında mövqe tutaraq bilavasitə Makedoniyalı İsgəndərin başçılıq etdiyi dəstəyə qarşı vuruşmuşlar. Arrian Aristobul oğlu Aristobula istinadən alban və sakasenlərin döyüşdəki mövqelərini belə göstərmişdir: “Sağ cinahda Keleseriya və İkiçayarasından olan əsgərlər, həmçinin midiyalılar, onlardan sonra parfiyalı və saklar, sonra tapurlar və hirkanlar, sonra alban və sakasenlər – onlar falanqanın ortasında idilər”[1]. Bundan sonra cərəyan edən hadisələr-Əhəməni imperiyasının süqutu, ardınca Makedoniya imperiyasının parçalanması bu prosesi sürətləndirdi və Azərbaycanın şimal torpaqlarında Albaniya dövləti yarandı. Cənubi Qafqazın ən qədim dövlətlərindən biri olan Albaniya müəyyən fasilələrlə bizim eranın VIII əsrinin əvvəllərinə, təxminən min ilədək mövcud olmuşdur.

## Tarixi coğrafiyası və əhalisi

Albaniya dövlətinin əhatə etdiyi ərazilər müasir Azərbaycan Respublikasının ərazilərini bütövlükdə əhatə etmiş, bundan əlavə olaraq müasir Gürcüstan və Ermənistan respublikalarının şərq ərazilərini, Dağıstanın cənubunu əhatə etmişdir.

Antik dövrdə Albaniyanın sərhədləri şimalda Sarmatiyaya qədər uzanmış, şimal-şərq qurtaracağı Qafqazın ən uca zirvələrini (Keraun dağları) əhatə etmişdir. Bu haqda Strabon yazır: “Əsl Qafqazın ən uca sıra dağları Albaniya və İberiya ilə, həmçinin

[1] Arrian. Alexander the Great. (Transl. Chinnock E.J.). London, 1929, vol.I, p. 161.

kolxların və henioxların (əraziləri) ilə (həmsərhəd) olan ən cənub dağlardır"[2]. Onun məlumatlarına görə Albaniyanın şimalı ilə uzanan Qafqaz "vadilər üzərində ucalır və dənizə ən yaxın olanları Kerauniya (Κεραύνια) dağları adlanır" [3]. Albaniyanı Sarmatiyadan ayıran Keraun silsiləsi Samur çayından şimalda lokalizə edilir, bu da antik dövrdə Dərbənddən şimal ərazilərin də Albaniyanın sərhədlərinə daxil olmasını göstərir. Erkən orta əsrlər dövründə isə Albaniyanın şimal-şərq ucqarı olaraq Çola göstərilmişdir. Bu inzibati vahid Dərbənd keçidindən cənuba doğru Baş Qafqaz sıra dağlarının şərq qolunun Xəzərə qədər uzanan sahil hissəsini, Sumqayıtçaya qədər olan əraziləri əhatə edirdi.

Albaniyanın şərq sərhədini Xəzər dənizi təşkil edir. Antik dövrdə bu sərhəd şimalda Sarmatiya sərhədlərindən başlayıb cənubda Kür çayının mənsəbinə qədər uzanaraq Kaspi dənizi sahilində qurtarırdı[4]. Müəyyən dövrlərdə isə cənub-şərqdə yerləşən Kaspiana vilayəti Albaniyanın bu istiqamətdəki sərhədini təşkil etmişdir. Bu vilayət antik qaynaqlarda bəzən Albaniyanın, bəzən Atropatenanın tərkibində göstərilmişdir. Strabon yazır ki, "Kaspiana vilayəti də albanlara məxsus idi...".[5] Lakin Klavdi Ptolemey bu vilayəti Madanın (yəqin ki, Kiçik Mada-Atropatena nəzərdə tutulur) bir hissəsi kimi göstərmişdir.

Albaniyanın cənub sərhədini Araz çayı təşkil edirdi. Alban tarixçisi Moisey Kalankatuklu qeyd edir ki, "Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri və xırda balıq gətirib, sularını Xəzər dənizinə tökür"[6]. Həmçinin, Albaniyanın ilk hökmdarı Arandan danışarkən yazır ki, "...Aran Araz çayından başlayaraq Hunan qalasınadək uzanan Alban ölkəsinin düzənliklərini və dağlarını miras olaraq almışdır"[7]. Kür çayının hər iki sahilində eyni etnosun yaşadığı arxeoloji cəhətdən də təsdiqlənir.

Antik dövrdə Albaniyanın qərb qonşusu iberlər, qərb sərhədlərinin ən ucqar nöqtəsi şimal-qərbdə Dəryal keçidi ətrafı ərazilər olmuşdur. Strabon Kambisena vilayətini qərbdə İberiya ilə sərhəd zona olaraq göstərmişdir. O yazırdı: "İberiyadan Albaniyaya giriş susuz və daşlı Kambisena vilayətindən keçir"[8]. Albaniya dövlətinin ilkin dövründə sərhədin Kambisena ilə məhdudlaşdığı inandırıcı deyil. Çünki, mənbələrdə Dəryal keçidinə qədər yaşayan alban tayfalarından danışılır. Böyük Plini yazırdı "...Albaniya sərhədlərindən başlayaraq dağların bütün sinəsi boyu vəhşi silv tayfaları, onlardan aşağıda lupenlər, sonra isə, didurlar və sodlar yaşayırdı. Onların arxasında çoxlarının səhvən Kaspi qapıları adlandırdığı Qafqaz qapıları yerləşir"[9].

[2] Страбон. География в 17 книгах. (Пер. А.Стратановского). Москва, 1964, с. 500.
[3] Там же, с. 475.
[4] Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 2007, s. 23.
[5] Страбон. География., с. 475-476.
[6] Kalankatuklu M. Albaniya tarixi. Mxitar Qoş. Alban səlnaməsi. Tərc. Z.Bünyadov, Bakı, 1993, s. 16.
[7] Yenə orada, s. 17.
[8] Страбон. География., с. 476.
[9] Латышев В.В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. Т. II, Санкт-Петербург, 1904, с. 182.

Burada qeyd edilən silv, lupen, sod tayfaları alban tayfalarının tərkibinə daxil idilər. Bunlardan lupenlərin adı ilə sonrakı dövrlərdə təxminən eyni əraziləri əhatə edən Lpiniya vilayəti mövcud olmuşdur. Sarmat qapıları, Alban qapıları, Qafqaz qapıları kimi qeyd edilən Dəryal keçidi isə Lpiniyanın arxasında yerləşirdi.

Albaniya dövlətinin ilk paytaxtı antik müəlliflərin əsərlərində Kürün şimalında yerləşən Kabalaka şəhəri olaraq qeyd olunmuşdur. Kabalaka şəhərinin adını ilk dəfə antik müəlliflərdən Böyük Plini çəkmişdir. Bu şəhəri müasir Qəbələ şəhəri ilə eyniləşdirilir. Qəbələ rayonu ərazisində yerləşən Çuxur-Qəbələ yaşayış yeri Qədim Kabalakanın qalıqları hesab olunur. Bu ərazidə–uzun müddətli arxeoloji qazıntı işləri aparılmış, həm antik, həm də orta əsrlər dövrünə aid olan çoxsaylı maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Albaniya dövlətinə aid olan ən böyük pul dəfinələrindən biri məhz Qəbələ şəhər yeri yaxınlığındakı ərazidən tapılmışdır.

Orta əsrlər dövründə isə Albaniyanın inzibati mərkəzi Kürün şimalından cənubuna keçdi. Bərdə şəhəri Albaniyanın paytaxt şəhərinə çevrildi. Orta əsrlərə aid olan mənbələrin hamısında Bərdə şəhəri Albaniyanın paytaxtı olaraq göstərilmişdir. Ehtimal olunur ki, eramızın V əsrindən etibarən Sasanilər əlverişli coğrafi və strateji mövqeyini nəzərə alaraq Bərdəni öz iqamətgahları olaraq seçməsi üçün alban hökmdarlarına göstəriş vermişlər. Qeyd etmək lazımdır ki, Bərdə bu mərkəzi mövqeyini uzun müddət, X əsrdəki rus hücumlarına qədər davam etdirə bildi.

Albaniyanın əhalisi barədə ilk məlumatlar da antik müəlliflərə aiddir. Onlar burada yaşayan etnosların həm xarici görünüşü, həm məşğuliyyəti, həm adət-ənənələri haqqında məlumat vermiş, çox nadir hallarda etnik mənsubiyyətlə bağlı məsələlərə toxunmuşlar. Alban tayfaları Cənubi Qafqazın avtoxton tayfaları olmuşlar. Antik müəlliflərdən Plutarx yazırdı ki, Pompey Pont çarı VI Mitridatı təqib edərkən avtoxtonlar yaşayan ərazidən keçməli oldu; "bunların arasında ən çoxsaylı olanlar iberlər və albanlardır"[10]. Bunu Strabon da təsdiq edərək yazır ki, alban və iber qəbilələrini çıxmaq şərti ilə digər Qafqaz qəbilələri çox kiçik ərazilərə malikdirlər[11]. Bu məlumatlar albanların ən gec e.ə. I əsrdə bölgədə sayı çox olan iki etnosdan biri olduğunu göstərir.

Müxtəlif etnosları özündə birləşdirən alban tayfaları monoetnik olmamışdır. Albanlar müxtəlif dil, bəlkə də müxtəlif etnik mənsubiyyətlərə malik olan tayfaların birliyi idi. Antik müəlliflərdən Strabon Albaniya haqqında bəhs edərkən qeyd edir ki, onlar "26 dildə (ləhcədə) danışır və bir-biri ilə çətin dil tapırlar"[12]. Alban adını daşıyan ayrıca bir tayfa olduğu kimi, bu ad həmçinin alban adı altında birləşmiş müxtəlif etnosların ümumi adını da ifadə edirdi. Belə ki, alban tayfaları sırasına albanların

---

[10] Алиев К.Г. Античные источники по истории Азербайджана. Баку, 1986, с. 62.
[11] Страбон. География., с. 187.
[12] Там же, с. 476.

özlərindən başqa kaspilər, gellər, leqlər, lupenlər (orta əsr mənbələrində lpinlər), silvlər (çilblər), sovdlar (savdeylər), utilər, qarqarlar, sakasenlər, kadusilər də daxil idi.

## Siyasi tarix

*Aranilər dövrü*

Albaniyanın siyasi tarixi ilə bağlı ilk məlumat Makedoniya ordusunun səfərlərini rəsmi sənədlərə əsasən qələmə alan II əsr müəllifi Arrianın "Anabazis" əsərində onların Qavqamela döyüşündə Makedoniyalı İsgəndərə qarşı vuruşması ilə bağlı məlumatdır. İsgəndərin ölümündən sonra şimalda yerli sülalənin idarə etdiyi Albaniya dövləti formalaşmışdır. M.Kalankatuklu "Alban tarixi" əsərində ilk hökmdarın adı Aran olaraq göstərilmişdir. Yəqin ki, Aran yerli sülalənin ilk nümayəndəsi olmuşdur. Bu sülalənin Albaniyanı eranın ilk əsrinə qədər idarə etdiyi ehtimal edilir.

E.ə. I əsrin 70-ci illərinin hadisələrindən başlayaraq albanları Cənubi Qafqazda cərəyan edən hadisələrdə aktiv şəkildə görürük. Roma sərkərdəsi Pompeyin Pont hökmdarı VI Mitridatla apardığı müharibələrin fonunda albanları da görmək mümkündür. Kaxetiya ərazisində gizlənən VI Mitridatı təqib edən romalılar Albaniya torpaqlarına gəlib çıxdılar. E.ə. 66-cı ilin dekabrında Roma qoşunları artıq Kür çayının sahilində idilər. Tit Livi yazırdı: "Mitridatı izləyən Qney Pompey ən ucqar və naməlum xalqlara qədər gedib çıxdı. O, onu (Pompeyi) içərilərə buraxmayan iber və albanlara qalib gəldi "[13]. Dion Kassiyə görə Roma qoşunları Anahit əyalətinə - məbəd torpaqlarına gəldilər[14]. Dini bayramlarından olan Satrunalini qeyd etmək üçün bura münasib yer idi. Pompey e.ə. 66-cı ildə Kür çayı sahilində olarkən qoşununu üç hissəyə böldü və onları üç qış məntəqəsində yerləşdirdi. Alban çarı Oroys Kürü keçərək romalıların hər üç dəstəsi üzərinə hücum etməyi qərara aldı. Qeyd etmək lazımdır ki, bu mənbələrdə adı ilk çəkilən alban hökmdarıdır. Alban çarı Metell Kelerin başçılıq etdiyi dəstəni özünə hədəf seçmişdir[15]. Qalan ordu hissələrini Pompeyin və Luki Flakkın üzərinə göndərdi. Antik müəlliflər bu döyüşü geniş təsvir etmiş, qədim dünyanın ən qanlı savaşlarından olduğunu yazmışlar. Romalıların qələbə çaldığı döyüşdən alban çarı sağ olaraq çıxmağı bacardı və Kür çayını keçərək uzaqlaşdı. Ardınca isə alban elçiləri Pompeyin yanına gəldilər və barışıq istədilər. Plutarx yazır ki, Pompey albanları "bağışladı"[16]. Dion Kassi isə əlavə edir: "albanlardan qisas almaq məqsədilə onların ölkəsinə soxulmağı çox istəsə də" albanlarla sülh imzaladı[17]. Lakin, albanlar Pompeylə olan barışığı pozdular. Məhz bu səbəblə də, Pompey İberiyada öz sərkərdələrindən Aristraxı idarəçi qismində

---

[13] Латышев В.В. Известия древних писателей греческих и латинских., 1904, с. 51.
[14] Cassius Dio. Roman History. (Transl. Earnest Cary): Vol. III. Classical Library edition, 1914, p. 99.
[15] Yenə orada, p. 93.
[16] Плутарх. Сравнительные жизнеописания: в 3-х, т. Т. II. Москва, 1990, с. 310.
[17] Cassius Dio. Roman History., p. 95.

saxlayaraq yenidən albanların üzərinə yönəldi. Pompey çox çətinliklə Kür çayını keçdi. Albanlar çay boyunca yolu kəsmək üçün iti payalarla bənd qurmuşdular. Romalıların ən böyük çətinliklərindən biri də yayın istisi və əsir götürülmüş albanlardan olan bələdçilərin onları rahat olmayan yolla aparması oldu[18]. Pompeyin ordusu Kambis (İori) çayına qədər susuzluqdan əziyyət çəksə də, itki olmadı. Bundan sonra Pompey 10000 tuluq su götürülməsini əmr etdi[19]. Kassi Dion buna əlavə olaraq qeyd edir ki, romalılar özləri ilə yalnız su gətirərək e.ə. 65-ci ildə Abant (Alazan) çayına gəlib çatdılar, digər sursatları onlar könüllü şəkildə yerlilərdən alırdılar və nəticədə onları incitmirdilər. Pompeyin ordusu İori və Alazan çayları arasındakı yolla, Albaniyanın Kambisena vilayəti ərazisindən keçməklə elə bu ərazidə, Alazan sahilində albanlarla qarşılaşdılar. Döyüşə 60 min piyada, 12 min süvari ilə çıxan albanlara Oroysun qardaşı Kozis başçılıq edirdi. Albanlar süvari cəhətdən romalılardan üstün idilər. Buna görə də Pompey bu döyüşdə hərbi hiylə işlədərək öz kiçik atlı dəstəsini önə buraxdı və albanları döyüşə cəlb etdi. Döyüş zamanı Kozis Pompeyin üzərinə atılmış, onlar əlbəyaxa olmuşdular. Kozis ağır yaralansa da, döyüşdən sağ qurtula bilir. Mühasirəni yarıb qaçmaq yalnız kiçik bir alban dəstəsinə nəsib oldu, lakin Dion Kassinin məlumatlarına görə onlar da sığındıqları meşədə romalılar tərəfindən meşə ilə bərabər külə döndərildilər[20]. Amma bu məğlubiyyətdən sonra Oroys Pompeyin yanına hədiyyələrlə birgə, öz elçilərini göndərdi və Roma sərkərdəsi "albanlara sülh bəxş etdi"[21]. Pompey Albaniyanın içərilərinə irəliləmədən geri qayıtdı və beş illik yürüşdən sonra e.ə. 61-ci ildə triumfla Romaya daxil oldu. Appianın yazdıqlarına görə triumfda üzərinə "...iber çarı Artok, alban çarı Oroys, Midiya çarı Dara, Kommagena çarı Antiox məğlub edildi" yazılmış lövhə nümayiş etdirilmişdi[22].

E.ə. 36-cı ildə Roma triumvirlərindən biri olan Antoninin Qafqaza yürüşü zamanı Roma ordularının Albaniya ərazisində hər hansı hərbi əməliyyatları barədə məlumat yoxdur. Plutarxın yazdığına görə "Onun (Antoninin) tərəfindən Armeniyada saxlanılan Kanidi ermənilərə, iber və alban çarlarına qalib gələrək Qafqaza çatdı"[23]. Həmin vaxt albanlara Zober adlı çar başçılıq edirdi. "Qışın sonlarında, Helli və Nervin konsulluğu zamanı Publi Kanidi Krass buradakı iberlərə qarşı çıxaraq onların çarı Farnabazı məğlub etdi, onu ittifaqa cəlb edərək onunla bərabər qonşu Albaniyaya daxil oldu, albanları və onların çarı Zoberi məğlub etdi, beləliklə, onları Roma tərəfinə çevirdi"[24]. Lakin, az keçmədən onlar Roma asılılığından çıxa bilmişdilər. İmperator Oktavian Avqustun dövründə (e.ə.27 –e. 14-cü illəri) onun adından tərtib olunmuş Ankir kitabəsində yazılır: "Bizimlə dost olmağı elçilər vasitəsilə...həmçinin albanların,

[18] Yenə orada, p. 101.
[19] Плутарх. Сравнительные жизнеописания., с. 311.
[20] Cassius Dio. Roman History., p. 102.
[21] Cassius Dio. Roman History., p. 179.
[22] Латышев В.В. Известия древних писателей греческих и латинских., 1893, с. 537-538.
[23] Там же, с. 494.
[24] Там же, с. 620.

iberlərin, medlərin hökmdarları istəmişlər”[25]. Bu yazı I əsrin əvvəllərində də albanların müstəqil şəkildə idarə olunduğunu göstərir.

*Arşakilər dövrü*

M.Kalankatukluya istinadən bu mərhələdə Albaniyada Parfiya mənşəli Arşakilər sülaləsi hakimiyyətə gəlmişdi. Antik mənbələrdə bu barədə məlumat olmasa da, bu dövrdə bütün Qafqazda baş verən ümumi proseslər yəqin ki, Albaniyaya da təsir edirdi. Arşakilərin ilk hökmdarı kimi M.Kalankatuklu I Vaçaqanı göstərmişdir. Lakin onun dövrünə aid mənbələrdə geniş məlumatlar yoxdur. Ümumiyyətlə, Arşakilər dövründə Albaniyanı idarə edən ilk hökmdarlar (I Vaçaqandan Urnayra qədər hökmranlıq edənlər) barədə məlumatlar azdır. I Vaçaqan haqqında o məlumdur ki, o, alban vilayətlərini yenidən birləşdirib ölkənin birliyini təmin etmişdir. Antik müəlliflərin əsərlərində bu dövrün alban hökmdarlarının adları çəkilməsə də, b.e.-nın I əsrinin hadisələri ilə bağlı maraqlı məqamlar var. Korneli Tatsit imperator Neronun albanlar üzərinə yürüş təşkil etmək planı barədə yazır. O məlumat verir ki, bu yürüşə hazırlıq məqsədilə Britaniya, Almaniya, İlliriyadan seçmə ordu hissələri Romaya gətirilmişdi, onlardan seçilən dəstələr “Kaspi qapılarına, albanlara qarşı göndərilmişdi”.[26] Bu vaxtlar Kaspi qapılarına (Dəryal keçidi) nəzarət yəqin ki, albanların əlində idi. Bu qapılar həm köçərilərin hücumu səbəbilə Romanın şərq əyalətlərinə daimi təhlükə idi, həm də iqtisadi-ticari əhəmiyyətə malik idi. Romada baş verən üsyan nəticəsində öldürülən imperator Neron öz səfərini gerçəkləşdirə bilmədi.

Antik mənbələrdə I əsrin sonlarına dair Albaniya ilə bağlı məlumat yoxdur. Yalnız imperator Domisianın dövrünə aid Azərbaycandan, Qobustan ərazisindən yazılı abidə tapılmışdır. Qaya üzərində həkk olunmuş latın əlifbası ilə yazılmış mətndə deyilir: “İmperator Domisian Sezar Avqust Germanikin dövründə XII legion Fulminatın senturionu Lusi Yuli Maksim”. Bu yazı 84-96-cı illərdə Romanın XII legionuna aid bir dəstənin Qobustana qədər gedib çıxdığını göstərir. Lakin onların hansı səbəblərdən Albaniya ərazisində olması məlum deyil.

Bundan sonra Albaniya barədə mənbələrdə olan məlumatlar Albaniyanın müstəqil idarə olunduğunu təsdiq edir. İmperator Trayanın dövrünü təsvir edən Yevtropi və Fest yazırdılar: “Trayan parfiyalılardan Armeniyanı aldı... Albanlara çar verdi, iber, bosforlu və kolxları hakimiyyəti altına aldı”[27]. Trayandan sonra Roma taxtına çıxan imperator Adrianın (117-138-ci illər) bioqrafı Yeli Spartian (IV əsr) isə Adrianın iber və albanlarla da dost münasibətləri olması, onların çarlarına səxavətli hədiyyələr göndərməsi, lakin albanların Adrianın görüşünə gəlməkdən imtina etməsi

[25] Латышев В.В. Известия древних писателей греческих и латинских., 1904, с. 41.
[26] Корнелий Тацит. История. Т.2. Ленинград, 1969, с. 8.
[27] Алиев К. Г. Античные источники по истории Азербайджана., с. 101-102.

barədə məlumat vermişdir[28]. Bundan sonra Albaniya barədə məlumatlar antik müəlliflərin əsərlərində əks olunmur.

III əsrin 20-ci illərində Albaniyanın cənubunda yeni bir dövlət yarandı. I Ərdəşir tərəfindən əsası qoyulan Sasanilər tezliklə imperiyaya çevrilə və ətraf ölkələrin bir çoxunu öz siyasi təsir dairəsinə sala bildilər. Alban hökmdarları Sasani siyasi təsirinə düşməmək üçün çoxcəhətli siyasət yürütməli olsalar da, həmişə bunu bacarmaq mümkün olmamışdır. Bu mövzuda Sasanilər dini siyasətdən uğurla istifadə edir, atəşpərəstliyin təbliğini təzyiq vasitəsi olaraq tətbiq edirdilər. Alban hökmdarları Sasanilərin bu siyasətini anlayır, mümkün qədər müstəqil siyasət yürütməyə çalışırdılar. Albaniyanın bu tarixi dövrünü əhatə edən hadisələr barədə nisbətən geniş məlumatlar Urnayrın (313-371) dövründən etibarən başlayır. Urnayr Sasani hökmdarı II Şapurun (309-379) müasiri idi. Alban tarixçisi M.Kalankatuklu onu "böyük müharibələrdə [sələflərinin] şanlı adına varis çıxaraq, Ermənistanın içərilərində qələbə bayrağı sancan rəşadətli ər" adlandırmışdır. Onun dövründə Albaniyada xristianlıq rəsmi din olaraq qəbul edildi. Urnayr ömrünü xristianlığın ölkədə möhkəmləndirilməsinə sərf etsə də, əhalinin bir qismi köhnə yerli dinlərdə qaldı. Onun dövründə albanlar Sasanilərin müttəfiqi qismində Roma ilə olan savaşlarda fəal iştirak etmişdilər. Bizans müəllifi Ammian Marselinin verdiyi məlumata görə o, Roma ilə Sasanilər arasında olan 359-cu il Amid döyüşündə II Şapuru müşayiət etmişdir. 371-ci il Dzirav döyüşündə də yenə də II Şapurun müttəfiqi olaraq Sasanilər tərəfdən vuruşmuşdur.

Urnayrdan Asvagenə (424-444) qədər taxtda olan alban hökmdarları haqqında məlumat yoxdur. Asvagen Sasani hökmdarı II Yezdəgerdin bacısı ilə evli idi. Onun dövründə Albaniyada köhnə əlifba əsasında yenisi yaradıldı, ölkədə elmin, mədəniyyətin inkişafı üçün tədbirlər görüldü, Bibliyanın, digər dini ədəbiyyatların alban dilinə tərcümə olunmasına başlanıldı.

Asvagendən sonra oğlu II Vaçe (444-463) taxta çıxdı. O Sasani hökmdarının göstərişi ilə Bərdə şəhərini inşa edib paytaxtı ora köçürdü. II Vaçenin dövründə bütün Qafqazda Sasani hakimiyyəti əleyhinə üsyanlar başlamışdı. Bu üsyanlardan birini də II Vaçenin özü başlatdı[29]. Üsyanın baş verməsinin səbəbi şübhəsiz ki, Sasanilərin uzun müddətdir ki, davam edən zülmü olmuşdur. Mənbələrdən məlumdur ki, onlar özlərindən asılı saldıqları xalqlara mədəni-ideoloji, siyasi, dini təzyiqlər etmiş və nəticədə təkcə Albaniyada deyil, bütün Qafqaz ölkələrində Sasanilər əleyhinə üsyanlar baş vermişdir. 457-463-cü illər arasında davam edən mübarizəni Firuz şah hunların köməyi ilə çətinliklə yatırtdı, II Vaçe taxt-tacdan imtina etdi və Arşakilərin hakimiyyətinə müvəqqəti ara verilmiş oldu. II Vaçenin hakimiyyətdən getməsindən

[28] Латышев В.В. Известия древних писателей греческих и латинских., 1906, с. 293.
[29] Kalankatuklu M. Albaniya tarixi., s. 45.

sonra Albaniya bir müddət hökmdar hakimiyyətini itirdi və təxminən otuz il Albaniya Sasani mərzbanlarının idarəçiliyi altında qaldı.

Daha sonra Sasani hökmdarları Qafqazda əvvəlki dini siyasətlərini yürüdə bilməyəcəklərini anladılar. Valarş şah Qafqaz xalqları ilə Nvarsak sülhünü imzaladı və onlara müəyyən imtiyazlar verdi, vergiləri azaltdı. 487-ci ildə isə Albaniyada yenidən hökmdar hakimiyyəti bərpa olundu, III Vaçaqan (487-510) taxta çıxdı. M.Kalankatuklu yazır ki, "Albaniyanın əhalisi yenidən bir çarlıqda birləşdi, çar övladlarından olan cəsur, müdrik, uca boylu, Yezdəgerdin oğlu, alban çarı Vaçenin qardaşı Vaçaqanı Sasani hökmdarı Valarşın köməyi ilə taxta çıxardılar"[30]. Onun hakimiyyəti illəri Albaniyanın həm siyasi, həm dini və mədəni cəhətdən inkişafı dövrü olmuşdur. O, xristianlığı möhkəmləndirməklə ölkədə dini birlik yaratmağa çalışmış, islahatlar həyata keçirmişdir. M.Kalankatuklu qeyd edir ki, Vaçaqan "göydəki ulduzların sayı qədər" məbədlər inşa etdirmişdir. III Vaçaqandan sonra Sasanilər yenə də Albaniyada hökmdar hakimiyyətinə son qoydular və ölkəyə öz mərzbanlarını (510-629) təyin etdilər. Sasani mərzbanları tərəfindən idarə olunduğu müddətdə Albaniya yenə də 603-629-cu illərdə Sasanilərlə Bizans arasında cərəyan etmiş müharibəyə cəlb olundu, ölkə ərazisi dağıntılara, talana düçar oldu. Alban əhalisi fürsət yarandıqca bu vəziyyətə qarşı etiraz bildirir, üsyan qaldırırdılar. Bu cür üsyanların biri Sasani hökmdarı II Xosrov tərəfindən amansızlıqla yatırıldı, alban əyanlarına ciddi zərbə vuruldu. Hadisələrin gedişində II Xosrovun arvadı Şirinin qoruması nəticəsində həyatda qalan alban katalikosu Viro Albaniya tarixinin sonrakı proseslərində əvəzsiz xidmətləri olan şəxsiyyətə çevrildi. O, Albaniyada sonralar hakimiyyətə gələn Mehranilər sülaləsinin ilk nümayəndələrindən biri olan Varaz Qriqora (E.B.- Cavanşirin atası) II Xosrov tərəfindən "Girdiman hakimi və Albaniyanın işxanı" titulunun verilməsinə nail olmuş, xəzərlərin 628-ci il yürüşü zamanı sərkərdə Şad ilə diplomatik danışıqlar apararaq ölkəsini daha ağır talan və basqınlardan qorumuş. Lakin, ölkə xəzərlərin sonrakı 629-630-cu il yürüşlərinə tab gətirmir. Belə bir vəziyyətdə ölkədə yeni bir sülalənin hakimiyyəti dövrü başlayır.

*Mehranilər dövrü*

Sülalənin banisi Mehran Sasani hökmdarına sui-qəsddə iştirak etdiyi üçün yeni şah II Xosrov tərəfindən cəzalandırılmadan ölkədən 30 min ailə ilə birgə çıxmış və Sasanilərin düşməni olan xəzərlərin yanına getməyi planlamışdı. Lakin II Xosrov onların birləşməsinə imkan vermədən Mehranla razılaşdı və ona gedib çatdığı ərazilərin idarəçiliyini verdi. Beləliklə, Uti, Girdman vilayətləri özək olmaqla Albaniya Mehranilərin idarəçiliyi altında yenidən yüksəlməyə başladı. M.Kalankatuklunun verdiyi məlumata görə Mehran ölkənin 12 hakimini yanına çağıraraq onları qılıncdan

[30] Kalankatuklu M. Albaniya tarixi., s. 56.

keçirdi və ölkəyə sahib oldu[31]. "Alban tarixi" əsərində Mehrandan başlayaraq Armael, Vard, Cəsur Vardan, Vard, Varadman, Varaz-Qriqor, Varaz-Peroz, Cavanşir, Yezud-Xosrov, Varazman olmaqla 11 Mehrani hökmdarının adı verilmişdir. Mehranilərin dövründə Albaniya bölgədə öz əvvəlki mövqeyini bərpa etməyi bacardı. Alban çarlarının bu dövrdə yürütdüyü siyasətin başlıca istiqaməti Albaniyanın siyasi müstəqilliyini qoruyub saxlamaq oldu.

Bu dövrdə Albaniyanı idarə etmiş hökmdarların içərisində Cavanşir (642-681) xüsusilə seçilirdi. Cavanşir bacarıqlı siyasi xadim və hərbi sərkərdə idi. O, yeddi il ardıcıl olaraq Sasani ordusunun tərkibində ağır döyüşlərdə iştirak etmiş, on bir dəfə yaralanmışdı. Hələ atası Varaz Qriqorun sağlığında o, Albaniyanın ilk işxanı olaraq fəaliyyətə başlamış, elə onun təyinatı ilə də Sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşmuşdur. Yaxınlaşan təhlükələrin fərqində olan Cavanşir Sasanilərlə ittifaqın ölkənin müstəqilliyini qorumaq baxımından faydasız olduğunu bilirdi. Buna görə də sasanimeylli siyasətdən üz döndərdi, hətta M. Kalankatuklunun yazdığına görə Cavanşirin Sasanilərə qarşı qiyam qaldırması səbəbindən Sasani döyüşçüləri Albaniyaya basqın etdilər[32]. Bu basqınlar zamanı Cavanşirin anası və qardaşları əsir alınaraq aparılmış, daha sonra Cavanşirin İberiya hökmdarı Atrnersehlə (605-641) ittifaqda bir neçə dəfə Sasani ordusu üzərindəki qələbələrindən sonra qarşı tərəf barışıq üçün vasitəçi göndərmiş, tərəflər arasında razılıq əldə edilmiş, əsirlər geri verilmişdir.

Cavanşir bölgədə yeni yaranmış siyasi vəziyyəti düzgün qiymətləndirməyi bacarırdı. O, eyni zamanda Albaniyanın şimal sərhədlərini pozan, Qəbələyə qədər irəliləmiş xəzərlərlə münasibətləri nizamlamağa çalışır, həmçinin Bizansla diplomatik əlaqələr qurur, bölgəyə yeni nüfuz etmiş Xilafətlə də münasibətlər yaradırdı. M. Kalankatuklunun yazdığına görə, Cavanşir Bizans imperatoru II Konstanta məktub göndərmiş, onun himayəsini qəbul etmək istəyini bildirmiş, imperator isə bu təklifi qəbul edərək Cavanşirə yüksək hökmdarlıq titulu və hədiyyələr göndərmişdir[33]. Cavanşirin bu addımı yaxınlaşan Ərəb xilafəti təhlükəsindən ölkəni qorumaq cəhdi, Bizansın simasında yeni və daha güclü bir müttəfiq əldə etmək istəyi idi. Bu siyasət Cavanşirə qısa müddətə də olsa sərhədlərini möhkəmləndirmək imkanı verdi.

Bizansla danışıqlardan təxminən iki il sonra xəzərlər yenə də Albaniyanın sərhədlərini pozmağa başladılar. Onlar əvvəlcə Kür çayına qədər irəlilədilər, alban qoşunları onları geri oturtmağa nail oldu. İkinci yürüşlərində isə xəzərlər Araz çayına qədər gedib çıxdılar. Cavanşir Kür sahilində xəzər xaqanı ilə görüşüb danışıqlar apardı, diplomatik nikahla münasibətər nizama salındı, Cavanşir xəzər xaqanının qızı ilə evləndi, xəzərlər əsir götürdükləri albanları geri qaytardılar. Beləliklə, Albaniyanın şimal sərhədlərində müvəqqəti sakitlik yarandı.

---

[31] Yenə orada, s. 109.
[32] Yenə orada, s.129.
[33] Yenə orada, s.133.

VII əsrin 40-cı illərindən başlayaraq Ərəb xilafətinin yürüşləri Azərbaycan ərazilərinə də yönəlmişdi və Albaniya ərazilərini də eyni təhlükə gözləyirdi. Bunu hiss edən Cavanşir M. Kalankutlunun yazdığına görə, xilafət "zülmünə tabe olmağı qərara aldı". Tarixi mənbələrdə Cavanşirin iki dəfə xəlifə ilə danışıqlar aparmaq üçün onun görüşünə getməsi barədə məlumatlar vardır. İlk görüş 667-ci ildə Dəməşq şəhərində baş tutdu. Xəlifə Müaviyə tərəfindən çox hörmətlə qarşılanan Cavanşir Albaniyanın dövlət gəlirlərinin 2/3 hissəsini vermək şərtilə knyaz titulunu, daxili müstəqilliyini saxladı. Müqavilənin ən böyük nəticəsi isə ölkənin işğala məruz qalmaması oldu.

670-ci ildə Cavanşir ikinci dəfə Dəməşqə getdi. Bu dəfə onu xəlifə özü Bizansla danışıqlarda vasitəçi kimi iştirak etmək üçün dəvət etmişdi. Xəlifə onun üçün qardaşının sarayını ayırmış, onunla axşam yeməyinə oturmuş və Konstantinopoldan gəlmiş nümayəndə heyəti ilə danışıqları ona həvalə etmişdir. Xəlifə ilə olan bu ikinci görüş Albaniya ölkəsi üçün daha uğurlu olmuş, ölkənin üzərinə qoyulmuş vergilər Cavanşirin xahişi ilə yüngülləşdirilmiş, 1/3-ə endirilmişdir[34].

Cavanşirin Xilafət meyilli siyasəti ölkənin köhnə elitasının ürəyincə deyildi, xüsusilə də Bizans yönümlü təbəqə onun addımlarından narazı qalmışdı. Nəticədə 680 (681)-ci ildə həmin əyanların təşkil etdiyi sui-qəsd nəticəsində o öldürüldü. M.Kalankatuklu Cavanşirin öldürülməsi ilə bağlı yazırdı: "Bütün ölkə dərd və qəmdə olub Cavanşirin yasını tuturdu. Görün, nə böyük dərdə saldı bizi qatil, ölkəmizə neçə ağır zərbə endirdi!" Görkəmli alban şairi Dəvdək Cavanşirin ölümünə yazdığı ağıda onun həyatını vəsf etmiş, ölümünün yaratdığı ağır kədəri qələmə almışdır[35]. Cavanşirin qardaşı oğlu Varaz Tiridat taxta çıxdı, xəlifə onun Albaniya üzərində hakimiyyətini tanıdı. Cavanşirin ölümünü bəhanə edən xəzərlər Albaniya ərazisinə soxuldular. Talan və qırğınların qarşısını almaq üçün Varaz Tiridat 681-ci ildə katalikos Yeliazarı xəzərlərlə danışıqlar aparmaq üçün göndərdi. Bu ilk elçi qrupunun fəaliyyəti, həmçinin ikinci dəfə göndərilən qrupun rəhbəri yepiskop İsrailin fəaliyyəti uğurlu oldu, xəzərlərlə dostluq əlaqələri bərpa olundu, hətta xəzər əsilzadələrinin və xəzərlərin bir hissəsinin xristianlığı qəbul etməsi ilə bağlı məlumatlar vardır. Albaniya torpaqlarında sabitlik müvəqqəti oldu. 685-ci ildə xəzərlər yenə də Albaniya sərhədlərini pozdular, çoxlu qırğınlar törətdilər, əsir və qənimətlər ələ keçirdilər. VII əsrin sonu bütün Cənubi Qafqaz xəzər, ərəb, Bizans qoşunlarının döyüş meydanı rolunu oynadı, yerli əhali bu savaşlarda ciddi zərər çəkdi. Alban hökmdarı və hakim dairələri bu gərgin vəziyyətdən doğru şəkildə azad olmaq yollarını tapa bilmədilər. Davam edən siyasi və dini parçalanmalar Albaniyanın müstəqilliyini təhlükə altına aldı. Belə ki, erməni-qriqoryan kilsəsinin alban kilsəsinə qarşı mübarizəsi və bu mübarizədə Xilafətin bölgədə yürütdüyü siyasətdən uğurla istifadə etməsi alban kilsəsinin avtokefalığını itirməsinə və Alban dövlətçiliyinin də itirilməsinə səbəb oldu. 705-ci ildə ərəblər

[34] Yenə orada, s. 145.
[35] Yenə orada, s. 146-147.

Albaniyanın vassallıq münasibətlərinə son qoydular və Albaniya tamamilə Xilafətdən asılı düşdü.

## Sosial-iqtisadi həyat

Antik dövrdə alban cəmiyyətinin yuxarı təbəqələrinə hökmdar, din xadimləri, məmurlar və döyüşçülər daxil olmuşdur. Aşağı təbəqəni isə əkinçi və maldar əhali qrupu təşkil etmişdir. Albaniyada quldarlıq müəyyən dövrlərdə mövcud olsa da, klassik quldarlığa çevrilib kök sala bilməmişdir. Bu baxımdan, daha çox feodal münasibətlərin formalaşmasından sonrakı dövrün sosial-iqtisadi proseslərini izləmək və onların əsasında fikir yürütmək mümkün olur.

Albaniyada bir ictimai-sosial quruluşdan digərinə transformasiya prosesi təbii şəkildə və sürətlə baş verdi. Dövlətin icmaya aid olan əraziləri, kənd və şəhərləri öz yaxınlarına, xidmət göstərmiş şəxslərə bağışlaması tədricən bu torpaqların şəxsi mülkiyyətə çevrilməsinə və cəmiyyətin yeni sosial strukturunun formalaşmasına gətirib çıxardı. Bu dövrdə cəmiyyətin sosial əsası əsasən iki zümrədən ibarət idi: mənbələrdə "azatlar" kimi qeyd olunan feodal zümrə (iri torpaq sahibləri) və "şinakanlar" kimi qeyd olunmuş kəndlilər (kiçik torpaq sahibləri) zümrəsi. Sonrakı dövrlərdə isə buna yenə də yuxarı zümrəni ifadə etmək üçün "naharar" termini də əlavə olundu. Sadə camaat mənbələrdə bəzən "ramiklər" terminindən də istifadə olunurdu. Bu terminlər dövrün hegemon dövləti olan Sasani imperiyasında istifadə olunan terminlər idi.

Əsas vergi ödəyiciləri kəndlilər hesab olunurdu və onlar dövlətin, mülk sahiblərinin, kilsənin xeyrinə vergi ödəyirdilər. Onlar məhsul, torpaq, can vergisi daxil olmaqla onlarla vergi növünü ödəməyə məcbur idilər və eyni zamanda başqa mükəlləfiyyətlər də daşıyırdılar.

Albaniyada torpaq mülkiyyətinin müxtəlif formaları mövcud olmuşdur. Orta əsr qaynaqlarına əsasən dövlət torpaqlarından əlavə, xostak və dastakert kimi qeyd olunmuş mülk torpaqları, kilsə və monastırlara aid olan torpaqlar mövcud idi.

Sosial münasibətlərin inkişafı ölkənin təsərrüfat həyatında əks olunurdu. Arxeoloji materiallar e.ə. I minilliyin ikinci yarısında Şimali Azərbaycanı inkişaf etmiş oturaq əkinçi-maldar təsərrüfatına malik bir zona kimi müəyyən edir. Albaniya ərazisi çox münbit və bərəkətli idi. Buna görə də albanlar əkinçilik, maldarlıq, balıqçılıqla məşğul olmuş, sənətkarlığın müxtəlif sahələrində çalışmışlar. Strabon yazırdı ki, albanlar və iberlər "münbit torpağa malikdirlər və təsərrüfatı yaxşı inkişaf etdirə bilirlər"[36]. Bir dəfə toxum səpilən torpaq çox yerdə iki və ya  üç dəfə məhsul verir və birinci məhsul səpiləndən hətta 50 dəfə artıq alınır"[37]. Orta əsr mənbələrində də

[36] Страбон. География., с. 473.
[37] Yenə orada, с. 475.

Albaniyanın təsərrüfat imkanlarının çox geniş olması öz əksini tapmışdır. M. Kalakatuklunun Albaniyada pambıqçılıq, atçılıq kimi təsərrüfat sahələri barədə məlumat vermişdir. Albaniya ərazisində müxtəlif sənət sahələri yüksək inkişaf səviyyəsinə çatmışdı, regionda yaşayan tayfalar digər ölkələrin xalqları ilə intensiv iqtisadi və mədəni əlaqələr saxlayırdılar. Bunu Albaniya torpaqlarından tapılan çoxlu sayda sikkə nümunələri təsdiq edir. Əldə edilən materiallar Albaniyada ticarət əlaqələrinin və eyni zamanda şəhər həyatının inkişaf etdiyini söyləməyə imkan verir.

## Mədəniyyət

Alban tayfaları özlərindən sonra çox zəngin maddi və mənəvi miras buraxmışlar. Erkən alban mədəniyyəti ifadəsi bunu daha yaxşı ifadə edir. Erkən alban mədəniyyətinin yayılma arealı müasir Azərbaycan Respublikasının ərazisi ilə yanaşı, Gürcüstan və Ermənistan Respublikalarının şərq ərazilərini, həmçinin Dağıstanın Xəzərsahili ərazilərini əhatə etmişdir. Alban mədəniyyəti Dağıstan və Sarmatiya əhalisinin mədəniyyətində, həmçinin Kaxetiya mədəniyyətində öz əksini tapmışdır. Bu mədəniyyətin xarakterik cəhətləri küplərdə dəfn və alban tipli keramika nümunələridir. Albaniya ərazisində aşkar edilmiş dəfn formaları içərisində küplərdə dəfn çox geniş yayılmış, albanlara aid olan süddanlar, üçayaqlı vazalar Erkən alban mədəniyyətinin yayıldığı bütün ərazilərdən aşkar olunmuşdu.

Albaniyada inkişaf etmiş şəhər mədəniyyəti formalaşmışdı. Şəhərlər cəmiyyətin çoxəsrlik ictimai-iqtisadi inkişafının nəticəsində formalaşır. Şəhər mədəniyyətinin yaranması bərabərsizliyin və dövlətin yaranması ilə birbaşa bağlıdır. Qədim şəhərlər əvvəlcə oturaq əkinçilik cəmiyyətlərində yaranırdı. Onlar adətən iri yaşayış məskənlərinin ətrafında, həmçinin siyasi-inzibati, mədəni-iqtisadi, ideoloji mərkəzlər ətrafında da yaranırdı. Albaniya ərazisində şəhərlərin yaranmasında bu amillərin hər birinin ayrıca rolu oldu. Həmçinin, Yaxın və Orta Şərqin inkişaf etmiş ölkələri, antik dünya ilə yaranan əlaqələr də bu prosesi sürətləndirdi. Antik müəlliflər Kabalaka, Ayniana, Anariaka, Niqa, Kemaxiya, Taqoda, Deqlana ümumiyyətlə isə 30-a yaxın alban şəhərinin adını çəkmişdir. Alban şəhərlərinin bir çoxu daha qədim yaşayış məskənlərinin üzərində yaranmış, onların inkişafı nəticəsində ortaya çıxmışdır. Sonrakı dövrlərdə Albaniya ərazisində Qəbələ, Dərbənd, Şamaxı, Naxçıvan, Şəki, Bərdə kimi şəhərlər formalaşaraq inkişafını davam etdirdi. Bu şəhərlərin qalıqları, həmçinin, albanlara aid olan çoxsaylı müdafiə qurğuları, istehkamlar, dini təyinatlı tikililər albanların şəhərsalma və memarlıq bacarıqlarının göstəricisidir.

Albaniya ərazisində yaşayan əhalinin dini baxışları da dövrün inkişafı, baş verən itimai-siyasi proseslər ilə əlaqədar olaraq dəyişkən olmuşdur. Uzun müddət Əhəməni hakimiyyəti altında olan bu ərazilərdə atəşpərəstliyin də xeyli müddət mövcud olması şübhəsizdir. Atəşpərəstliyin geniş yayıldığı Atropatenadan fərqli olaraq Albaniyada

ataşpərəstlik geniş yayılmamışdır. Xristianlıq yaranana qədər Albaniyada yerli dinlərə sitayiş olunurdu. Strabon bu barədə yazırdı: "Onlar tanrılardan Helios, Zevs və Selenaya, xüsusilə, məbədi İberiya yaxınlığında yerləşən Selenaya xidmət edirlər". Albaniya ərazisində yerli dini ayinlərin həyata keçirilməsi üçün məbədlər də mövcud olmuşdur.

Albaniyaya xristianlıq nüfuz etdikdə Albaniyanın əhalisinin bir hissəsi köhnə dinlərində qalsalar da, bir hissəsi xristianlığı qəbul etdi. Təsadüfi deyil ki, Qafqazda ilk xristian kilsəsinin əsası da məhz Albaniyada, onun qərb ərazilərində qoyulmuşdur. Xristianlığı təbliğ etmək vəzifəsi ilə gələn müqəddəs Faddeyin tələbəsi müqəddəs Yelisey öz təbliğini Çolada başlasa da, oradan 3 şagirdi ilə Uti vilayətinin Srxarn adlanan şəhərinə, oradan isə Gisə gəlir, burada kilsə inşa edir[38]. Günümüzdə bu kilsəyə Müqəddəs Yelisey kilsəsi də deyilir.

Xristianlıq Albaniyada rəsmi dinə çevrildikdən sonra bütün digər dini inanclar batil hesab olunmağa, yerli dinlərə sitayiş edənlər cəzalandırılmağa başlandı. Yeni dinin əsaslarına heç cür uyğun gəlməyən bu dini ayinlər xristianlıqdan sonra tədricən yox olub getməyə başladı. Alban çarlarından III Vaçaqanın fəaliyyəti bu mənada daha məhsuldar dövr olmuşdur. O, hakimiyyət illəri dövründə məktəblər açdırmış, dağıdılmış kilsələri bərpa etdirmiş, yeni kilsə və monastırlar inşa etdirmişdir. Azərbaycanın demək olar ki bütün bölgələrində, Ermənistan və Gürcüstan Respublikalarının şərq rayonlarında, Dağıstanın cənub hissəsində albanlara məxsus olmuş müxtəlif abidələr, xüsusilə də dini abidələr qalmaqdadır. Yeddi kilsə monastr kompleksi, Qum bazilikası, Kiş məbədi, Xudavəng, Calut monastrları, Kilsədağ dairəvi məbədi alban memarlığının ən unikal nümunələrindən hesab oluna bilər.

Alban kilsəsinin təkcə dini əhəmiyyət daşımırdı, o eyni zamanda ictimai-siyasi hadisələrə təsir etmə qüvvəsinə malik idi. Bunun ən yaxşı nümunələrindən biri Albaniyada mərzbanlıq dövründə cərəyan edən hadisələr zamanı katalikos Vironun aktiv şəkildə siyasi hadisələrə nüfuz etməsi və diplomatik danışıqlarda iştirakıdır.

Albanlar antik dövrdə yazıya malik olan xalqlardan biri olmuşdur. Portlu İppolit (III əsr) yazırdı ki, "...öz dili olan xalqlar aşağıdakılardır: ...maqlar, kaspilər, albanlar, ... iberlər"[39]. Alban əlifbasının təxminən I-II əsrlərdə formalaşdığı ehtimal olunur. Lakin albanların ilk dövrdə istifadə etdikləri əlifba barədə məlumat yoxdur. Sonralar aşkar olunmuş 52 hərfdən ibarət olan alban əlifbası erkən alban əlifbasının yenilənmiş variantıdır. M.Kalankatuklunun verdiyi məlumata əsasən o dövrdə Qafqazdakı digər xalqların da əlifbalarında yeniləmə aparmış Mesrop Maştos Benyamin adlı alban din adamının köməyi ilə qarqar dili əsasında əlifbanı yeniləmişdir. Alban hökmdarı Asvagenin dövründə olmuş bu hadisədən sonra alban əlifbası bütün ölkəyə yayılmış, xristian dininin müqəddəs kitabları alban dilinə tərcümə olunmuşdur.

---

[38] Kalankatuklu M. Albaniya tarixi., s.17.
[39] Латышев В.В. Известия древних писателей греч... 1893, с. 649.

Albaniyada əlifbanın öyrədilməsi üçün məktəblər açılmışdır. Bu məktəblərdə zadəganların, ruhanilərin övladları təhsil alırdı. Mənbələrdə hökmdar III Vaçaqanın ölkə ərazisində çoxlu sayda məktəblər açdırması, təhsili himayə etməsi ilə bağlı məlumatlar var. M.Kalankatuklu yazır ki, Vaçaqan məktəblərə gələr, şagirdləri başına toplar, onlara əllərində olan yazıları yüksəkdən oxumağı əmr edər, "özü buna xəzinə tapan adam kimi sevinərdi". Albaniyanın kənd yerlərində də belə məktəblər var idi. Bu məktəblərdə tədris alban dilində aparılırdı.

Alban əlifbası ilk dəfə 1937-ci ildə gürcü alimi İlya Abuladze tərəfindən aşkara çıxarılmışdır. Alban dilində ilk mətn də yenə gürcü alimi Z.Aleksidze tərəfindən tapılmışdır. Sonrakı dövrdə Z.Aleksidze Sinay yarımadasındakı monastırda aşkar edilmiş palimpsetdəki iki alt mətnin albanlara aid olduğunu müəyyən etmişdir[40]. Sinay palimpsetlərinin aşkar olunmasından sonra alban əlifbası üzərində tədqiqatlar sürətlənmiş, Z.Aleksidze ilə yanaşı V.Şultz, C.Gippert, J.P.Mahe əlifbanın oxunması işini təkmilləşdirmiş, yeni nəticələr əldə etmişlər.

[40] Aleksidze Z. Qafqaz albanları dilləndilər. Tiflis, 2003, s. 25.